Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

İLHAM RƏHİMLİ

# AZƏRBAYCAN TEATR ENSİKLOPEDİYASI

ÜÇ CİLDDƏ

III
CİLD

Azərbaycan Milli
Kitabxanası

BAKI – 2017



**TELMAN ƏLİYEV**

*(2.11.1947, Şuşa). Aktyor.*

Xarakterik komediya obrazlarını böyük məharət və yaradıcı ehtirasla oynayır. Klassik peşəkar teatrımızın komediya qolunun estetik prinsiplərindən və xalq tamaşalarının poetika səciyyələrindən ustalıqla istifadə edir. Telman Rüstəm oğlu Əliyevin ailəsi Şuşadan Tərtərə, sonra Gəncəyə köçüb. Bir müddət Gəncə alüminium zavodunda işləyib, 1966 – 1969-cu illərdə hərbi xidmətdə olub. 1970 – 1997-ci illərdə Cəfər Cabbarlı adına Gəncə Dövlət Dram Teatrında işləyib. Gəncə teatrında quruluşçu rejissor və tərtibatçı rəssam kimi də çalışıb. 1977 – 1982-ci illərdə Mirzağa Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun mədəni-maarif fakültəsində qiyabi təhsil alıb. Qısa müddət Musiqili Komediya Teatrında və Bakı Bələdiyyə Teatrında işləyib. 2000-ci il fevral ayının 8-dən Akademik Milli Dram Teatrının truppasındadır. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərir. 17 may 1989-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adı ilə təltif olunub.

*Gəncə teatrında ifa etdiyi əsas rollar:* Bəhram, Baloğlan («Solğun çiçəklər» və «Almaz», Cəfər Cabbarlı), Şeyx Alı («Vaqif», Səməd Vurğun), Kərəm, Cəmil («Üçatılan» və «Unuda bilmirəm», İlyas Əfəndiyev), Məşədi İbad («Məşədi İbad», Üzeyir Hacıbəyli), Səlim («Qaçaq Nəbi», Süleyman Rüstəm), Karranti («Uzaq sahillərdə», Həsən Seyidbəyli və İmran Qasımov), Sergey Tülenin, Ataman («Unutmayın» və «Anacan», Yusif Əzimzadə), Əzrail («Dəli Domrul», Altay Məmmədov), Əziz («Qatır Məmməd», Zeynal Xəlil), Nəroğlan («Qız atası», Əfqan Əsgərov), Qraf Rifers, Rodriqo («III Riçard» və «Otello», Uilyam Şekspir),



***«Kişilər», Altay Məmmədov. Gəncə teatrı.***
*Hüseynağbacı – Telman Əliyev*

Yura («İki qardaş», Mixail Lermontov), Telyatev («Quduz pullar», Aleksandr Ostrovski), Xaritonov («Qoca», Maksim Qorki), Mernitsa («Qəribə dilənçi», Yan Poloviç), Durbişxan («Araba hələ aşmayıb», Otia İoseliano), Aktyor, Gitlaru, Aparıcı və Otiliya («İctimai rəy», Aurel Baranqa).

*Akademik teatrda oynadığı əsas obrazlar:* Şeyx Əhməd («Ölülər», Cəlil Məmmədquluzadə), Balaxan, Şüeyb («Aydın» və «Ulduz, yaxud Ədirnə fəthi», Cəfər Cabbarlı), Qüdrət Qurbanoviç, Dilənçi («Köhnə ev» və «Varlı qadın», Əli Əmirli), Sintezator («Hələ «sevirəm» deməmişdilər...», Ramiz Novruz), Teromen («Fedra», Jan Rasin), İovel («Kaş araba aşmayaydı!..», Otia İoseliani).

Telman Əliyev «Şeytan içimizdədir» (Şöbə rəisi), «Yük» (Duxançı), «Bizi dağlarda axtarın» (Telman) bədii filmlərinə çəkilib.

***«Özümüzü kəsən qılınc», Bəxtiyar Vahabzadə. Akademik Milli Dram Teatrı.***
*Salur xan – Telman Əliyev*

